TƏSDİQ EDİRƏM”
Azərbaycan Turizm və Menecment
Universitetinin rektoru _____ İ. İ. Mədətov
“ 14 ” sentyabr 2023-cü il

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ
AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİNİN

ELMİ-TƏDQİQAT STRATEGİYASI

Bakı-2023

ATMU-EİŞ-T(ETS)-01

Dəyişikliklər haqqında məlumat			
Tarix	**Versiya**	**Tərtib etdi**	**Dəyişikliyin izahı**
13.09.2023	01	f-r.e.n.,dos.N.B.Nəsirli	İlkin versiya

Azərbaycan Turizm və Menecment Universiteti haqqında

Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) 22 dekabr 2014-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2006-cı ildən fəaliyyət göstərən Azərbaycan Turizm İnstitutunun (ATİ) bazasında yaradılmışdır. ATMU ölkədə turizm və menecement sahələri üzrə kadr hazırlığını həyata keçirən ali təhsil müəssisəsidir. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2018-ci il 7 iyun tarixli 255 nömrəli qərarı ilə ATMU Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin tabeçiliyində 3 fakültə və 8 kafedra ilə fəaliyyət göstərir. ATMU-da tədris təhsilin bakalavriatura, magistratura və doktorantura pillələri, həmçinin əlavə təhsil proqramı üzrə həyata keçirilir. Azərbaycan Turizm və Menecment Universiteti Azərbaycan Respublikasında Ali Təhsil Müəssisələri arasında ilk dəfə beynəlxalq ikili diplom proqramını tətbiq etmişdir. Avstriyanın IMC Krems Tətbiqi Elmlər Universiteti ilə 2007-ci ildə Azərbaycan-Avstriya Turizm Proqramının reallaşdırılması ilə bağlı müqavilənin imzalanması ilə yerli və beynəlxalq turizm təhsilinin incəliklərindən xəbərdar olan mütəxəssislər turizm sektorunun inkişafına töhfə verməkdədirlər. Təhsil aldıqları müddətdə tələbələr təhsillərini 1 semestr ərzində Avstriyada davam etdirməklə beynəlxalq təhsil təcrübəsi əldə etmiş olurlar. Avstriyadan olan mütəxəssislər tərəfindən tədrisin aparıldığı proqramı uğurla bitirmiş tələbələr iki diplom - Azərbaycan Turizm və Menecment Universiteti və IMC Krems Tətbiqi Elmlər Universitetinin diplomlarını əldə edirlər.

20 noyabr 2019-cu il tarixində Azərbaycan Turizm və Menecment Universiteti "Turizm işinin təşkili" ixtisas proqramı üzrə ISO 9001:2015 - Keyfiyyət İdarəetmə Sistemi sertifikatına layiq görülmüşdür. ATMU-nun qeyd olunan sertifikata layiq görülməsi onun effektiv idarəetmə sisteminə malik olması və beynəlxalq standartlara cavab verən təhsil siyasətini həyata keçirməsinin göstəricisidir. 26 yanvar 2023-cü il tarixində Turizm və qonaqpərvərlik fakültəsi İSO 9001:2015 – Keyfiyyət idarəetmə sistemi standartı üzrə təkrar sertfikatlaşmadan keçmiş, yeni sertifikiat əldə etmişdir.

10 mart 2020-ci il tarixində Azərbaycan Turizm və Menecment Universiteti "Turizm işinin təşkili" ixtisas proqramı üzrə Ümumdünya Turizm Təşkilatının "UNWTO.TedQual" beynəlxalq keyfiyyət sertifikatına layiq görülmüşdür. Cənubi Qafqaz regionu ali təhsil müəssisələri arasında ilk dəfə olaraq ATMU-nun "UNWTO.TedQual" sertifikasiyası prosesindən uğurla

keçməsi Azərbaycanda turizm sahəsində ali təhsilin qlobal rəqabətliliyinin artırılması istiqamətində mühüm nailiyyətdir. "UNWTO.TedQual" Ali Təhsil Müəssisələri Şəbəkəsinə qoşularaq ATMU, akademik heyət üzvlərinin və tələbələrin mübadilə proqramlarında iştirak etmək hüququ əldə etməklə bərabər, həmçinin bilik və təcrübə mübadiləsi fürsətlərindən bəhrələnmək imkanı da qazanıb. 4 sentyabr 2023-cü il tarixində Azərbaycan Turizm və Menecment Universiteti "Turizm və Qonaqpərvərlik" və "Sosial menecment fakültələri" İSO 210001:2018 – Təhsilin idarəedilməsi standartı üzrə sertifikata layiq görülmüşdür.

Ali təhsil müəssisəsinin professor-müəllim heyətinin tədrislə yanaşı elmi-tədqiqat işlərinin təşkili və həyata keçirilmə prosesində iştirakı Təhsil Azərbaycan Respublikasının Qanununa görə zəruridir.

Azərbaycan Turizm və Menecment Universitetinin Elmi-Tədqiqat Strategiyası aşağıdakı 5 istiqamətdən (hədəfdən) ibarətdir:

1. Elmi tədqiqatların koordinasiyasını həyata keçirmək;
2. Magistratura və doktorantura təhsil pilləsində tədqiqat mühitinin yaradılması prosesinin həyata keçirilməsi;
3. İnnovasiya sahəsində universitetin strategiyasının, inkişaf planının və bu istiqamətli digər sənədlərin hazırlanması;
4. Beynəlxalq və yerli ali təhsil müəssisələri ilə birgə əməkdaşlıq əlaqələrinin qurulması;
5. "Web of Science" və "Scopus" elmi platformalarına daxil olan yüksək indeksli nəşrlərdə çap edilən məqalələrin sayını hər il artırılması istiqamətində fəaliyyət.

Strateji hədəf 1: Elmi tədqiqatların koordinasiyasını həyata keçirmək.

1.1. ATMU-da cari il üzrə elmi-tədqiqat mövzularının müəyyən edilməsi zamanı tədqiqat mövzularının aktuallığı təmin etmək;

1.2. Elmi-tədqiqat mövzularının müəyyən edilməsi zamanı müxtəlif sahələr üzrə prioritet məsələləri nəzərə almaq;

1.3. ATMU-da yerinə yetirilən elmi tədqiqat işlərinin koordinasiyası üçün vahid mexanizm yaratmaq;

1.4. Hər rüb üzrə elmi-tədqiqat işlərinin işlənməsi vəziyyətinin analiz edilməsi;

1.5. İllik elmi-tədqiqat işlərini təhlil edilərək, mühüm elmi nəticələrin seçilməsinə və şəbəkə jurnallarda nəşrinə nail olmaq.

Strateji hədəf 2: Magistratura və doktorantura təhsil pilləsində tədqiqat mühitinin təkmilləşdirilməsi

2.1. Magistratura üzrə aktual dissertasiya mövzularını müəyyən etmək;
2.2. Doktorantura üzrə prioritet dissertasiya mövzularını müəyyən etmək;
2.3. Magistratura və doktorantura təhsil pilləsində tədris prosesini müasir tələblər səviyyəsində təşkil etmək;
2.4. Tədqiqata cəlb edilən magistr və doktorantların elmi fəaliyyətinə dəstək mexanizmini formalaşdırmaq və maddi dəstək prosesinin mexanizmini hazırlamaq;
2.5. Bu istiqamətdə peşəkar kadrların formalaşması üçün beynəlxalq təcrübədən istifadə etmək.

Strateji hədəf 3. İnnovasiya sahəsində universitetin strategiyasının, inkişaf planının və bu istiqamətli digər sənədlərin hazırlanması

3.1. İnnovasiya sahəsində yeni tipli tədqiqat mərkəzinin yaradılmasını təmin etmək;
3.2. ATMU-da innovativ fəaliyyətin istiqamətləndirilməsi üzrə tədbirlər təşkil etmək;
3.3. Tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində inkişafa nail olmaq;
3.4. Tələbələrin elmi-yaradıcılıq fəaliyyətində yenilənmiş metodlardan istifadə etmək;
3.5. Yeni strateji hədəflərə əsaslanan fəaliyyət mexanizmi formalaşdırmaq.

Strateji hədəf 4: Beynəlxalq və yerli ali təhsil müəssisələri ilə birgə əməkdaşlıq əlaqələrinin qurulması

4.1. Birgə tədqiqatların aparılması istiqamətində yerli və beynəlxalq ali təhsil müəssisələri ilə əməkdaşlığın təmin edilməsi;
4.2. İstehsalat təcrübəsi keçiriləcək müəssisələrlə əlaqələrin genişləndirilməsi;

4.3. Xarici ali təhsil müəssisələri ilə işgüzar ikili diplom proqramının həyata keçirilməsi istiqamətində işləri təkmilləşdirmək;

4.4. Universitetin professor-müəllim heyətinin, magistr və doktorantların digər ali təhsil müəssisələrində keçirilən yerli və beynəlxalq konfranslarda iştirakını təmin etmək;

4.5. Digər müəssisələrlə əməkdaşlıq əlaqələrinin yaradılması zamanı peşəkar kadrlarla birgə fəaliyyətə üstünlük vermək.

Strateji hədəf 5. "Web of Science" və "Scopus" elmi platformalarına daxil olan yüksək indeksli nəşrlərdə çap edilən məqalələrin sayını hər il artırılması istiqamətində fəaliyyət.

5.1. "Web of Science" və "Scopus" elmi platformalarına daxil olan jurnallarda məqalə dərc edən müəlliflər üçün mükafatlandırma meyarlarını hazırlamaq və həyata keçirmək;

5.2. Elmi potensialı daha yüksək olan məqalələrin seçiminə nail olmaq istiqamətində müzakirələr təşkil etmək;

5.3. Tədqiqatçıların beynəlxalq bazalara daxil olan jurnallarda məqalə çap etdirmələri üçün ixtisasprofilli jurnalların müəyyənləşdirilməsinə dəstəyin göstərilməsi;

5.4. Universitetin professor-müəllim heyətinin beynəlxalq bazalara aid olan jurnallarda məqalə çapı ilə bağlı illik statistik göstəricilərinin hazırlanması, qalib müəlliflərin mükafatlandırılması təklifinin irəli sürülməsi;

5.5. Tədqiqatçılar üçün "Web of Science" və "Scopus" elmi platformalarda məqalə çapı məqsədilə seminarlar təşkil etmək.